# 2013-CÜ İLİN ƏSAS QRANT MÜSABİQƏSİ (EİF-2013-9(15)) ÇƏRÇİVƏSİNDƏ YERİNƏ YETİRİLMİŞ LAYİHƏ ÜZRƏ NƏŞRLƏR VƏ ƏSAS ELMİ NƏTİCƏLƏR

1. Respublikanın beynəlxalq avtomagistrallarından olan “Bakı-Quba və Rusiya sərhəddi (M-1) magistralı” ətrafında yaşayan əhali arasında müxtəlif növ xəstəliklərin yayılmasının əsas səbəblərindən biri də bu ərazilərin magistrala yaxın hissələrinin avtomobillərin yaratdığı səs-küy və daxili yanma mühərriklərindən atmosferə atılan zərərli maddələrlə çirklənməsidir. Buna görə də magistralda intensivliyin sürətli artımı nəticəsində yola yaxın (100 metrə qədər) məskunlaşmış əhalinin sağlamlığlarına dəyən ziyanın müvafiq qaydada qarşısını almaq əlaqədar təşkilatların əsas vəzivələrindən biri olmalıdır.
2. Avtomagistral boyu avtomobillərdən atılan zərərli maddələr atmosferlə yanaşı, biosferin digər komponentlərinin də səthinə mütəmadi olaraq çökməklə bioloji dövran vasitəsiylə insan və heyvan orqanizmlərinə daxil olaraq bir çox xəstəliklərin yaranmasına səbəb olur. Bakı və Sumqayıt əhalisini içməli su ilə bərabər, həmçinin meyvə-tərəvəzlə təmin edən əsas region olduğunu nəzərə alsaq, burada gələcək bağların yoldan 100 metrə qədər məsafədən kənarda salınması məsləhətdir.
3. Magistralda ətrafında yola yaxın (100 metrə qədər) sahələrdə torpaq və bitki nümunərinin analiz nəticələrində zərərli, xüsusiylə ağır metalların hələlik Yol Verilən Həddən artıq olması müşahidə edilməmişdir. Lakin burada avtonəqliyyat vasitələrinin intensivliyinin durmadan artmasını nəzərə alaraq indidən qabaqlayıcı tədbirlərin görülməsi vacibdir.
4. Magistralda ətrafında yola yaxın (100 metrə qədər) məskunlaşmış əhalinin normadan artıq səs-küy nəticəsində sağlamlığlarına dəyən ziyanın qayğısını qalmaq məqsədiylə səs-küy effektinə daha çox həssas olan uşaqlar, hamilə qadınlar və yaşlı insanlar magistralda avtomobillərin daha intensiv vaxtı açıq havada az olması məsləhətdir.
5. Magistralda ətrafında, xüsusiylə 100 metrə yaxın ərazilərdə məktəb, uşaq tərbiyə və sağlamlıq müəssisələrinin yerləşdirilməsi məsləhət bilinmir.

| № | Nəşr haqqında məlumat (Məqalələr) | Tam mətn |
|---|---|---|
| 1 | **Məqalənin adı:** Bakı-Quba və Rusiya sərhəddi (M1) avtomagistralında nəqliyatın torpağın çirklənməsinə təsiri<br>**Müəlliflərin S.A.A:** Hacıyeva G., Səadətova S., Eyyubova Z.<br>**Nəşrin adı:** Gənc alimlərin əsərləri, 2015, №12, s.67-70<br>**E-link:** -<br>**DOİ:** -<br>**İndekslənmə:** -<br>**İF:** - | |
| 2 | **Məqalənin adı:** The Impact Of Noise On Human Health<br>**Müəlliflərin S.A.A:** Aliyev A.<br>**Nəşrin adı:** Psychological Review, 2016, vol.123, issue 6 (12), pp.879-886<br>**E-link:** -<br>**DOİ:** -<br>**İndekslənmə:** -<br>**İF:** - | |